**İş icraçısı (metal konstruksiyaları üzrə, Neftqaztikinti tresti)**
**vəzifəsi üzrə test tapşırıqları**

1. Obyektin tikintisinin təsdiq edilmiş layihəyə uyğun  yoxlanılması tikintiyə nəzarətin hansı növünə aiddir?

A) Ümumi nəzarət

B) Texniki nəzarət;

C) Daxili əməliyyat nəzarəti;

D) Müəllif nəzarəti;

E) Texnoloji nəzarət

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

2. Tikintiyə müəllif nəzarəti kim tərəfindən aparılmalıdır?

A)  Podratçı tərəfindən

B)  Sifarişçi tərəfindən

C) Layihə təşkilatı tərəfindən

D) DLayihəçi və sifarişçi  tərəfindən

E) Sifarişçi və podratçı tərəfindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

3. Smeta dedikdə nə başa düşülür?

A)  Smeta dedikdə obyektin materialının və maşın mexanizmin dəyərinin öyrənilməsi başa düşülür.

B) Smeta dedikdə obyektin materialının və işçilərin əmək haqqının dəyərinin öyrənilməsi başa düşülür.

C) Smeta dedikdə cari təmir bərpası üçün dəyərin müəyyənləşdirilməsi məqsədi ilə tərtib edilmiş sənəd başa düşülür.

D) Smeta dedikdə bina və qurğuların inşası və ya onun cari təmir bərpası üçün dəyərin müəyyənləşdirilməsi məqsədi ilə tərtib edilmiş sənəd başa düşülür.

E) Tikintinin ümumi smeta dəyərini təyin edir. Tikintinin bütün müddəti boyu limit olaraq qalır. Obyekt və lokal smetaların cəmindən ibarətdir.

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

4. Tikintinin smeta dəyəri dedikdə nə başa düşülür?

A) Obyektin materialına və maşın mexanizmin istismar xərclərinə sərf olunan vəsait.

B) Obyektin materialına və işçilərin əmək haqqı xərclərinə sərf olunan vəsaitlərinin məbləği.

C) Obyektin cari istismarına və işçilərin əmək haqqı xərclərinə sərf olunan vəsaitlərinin məbləği.

D) Layihəyə uyğun binanı tikmək üçün əlavə xərclərin, materialın və işçilərin əmək haqqı xərclərinə sərf olunan vəsaitlərinin məbləği.

E) Layihəyə uyğun olaraq tikintinin yerinə yetirilməsi üçün lazım olan pul vəsaitlərinin məbləği.

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

5. Toplu smeta nədir?

A) Tikintinin ümumi smeta dəyərini təyin edir. Tikintinin bütün müddəti boyu limit olaraq qalır. Obyekt və lokal smetaların cəmindən ibarətdir.

B) Tikintinin fərdi cizgilıri və qüsur aktları əsasında hesablanır.

C) Sifarişçi və podratçı təşkilatlar arasında görülən tikinti quraşdırma işlərinin hesabat sənədidir.

D) Tikinti quraşdırma təşkilatlarının normativ gəliridir.

E) Tikinti quraşdırma işlərində material və əmək haqqı xərclərinin cəmindən ibarətdir.

Testin çətinlik dərəcəsi: çətin

İstinad: СНиП IV-1-84 Система сметных нормативных документов и ценообразования в строительстве

6. Obyekt smetası nədir?

A) Tikintinin fərdi cizgilıri və qüsur aktları əsasında hesablanır.

B) Lokal smetaların cəmindən ibarətdir. Tikinti quraşdırma işlərinin, avadanlığın və digər işlərinin dəyərindən ibarətdir

C) Tikinti quraşdırma təşkilatlarının normativ gəliridir.

D) Tikintinin ümumi smeta dəyərini təyin edir. Tikintinin bütün müddəti boyu limit olaraq qalır.

E) Toplu və lokal smetaların cəmindən ibarətdir.

Testin çətinlik dərəcəsi: orta

İstinad: СНиП IV-1-84 Система сметных нормативных документов и ценообразования в строительстве

7. Lokal smeta nədir?

A) Tikintinin ümumi smeta dəyərini təyin edir. Tikintinin bütün müddəti boyu limit olaraq qalır. Obyekt və lokal smetaların cəmindən ibarətdir.

B) Tikinti quraşdırma işlərində material və əmək haqqı xərclərinin cəmindən ibarətdir.

C) Tikintinin fərdi cizgilıri və qüsur aktları əsasında hesablanır.Sifarişçi və podratçı təşkilatlar arasında görülən tikinti quraşdırma işlərinin hesabat sənədidir.

D) Tikinti quraşdırma təşkilatlarının normativ gəliridir.

E) Toplu və obyekt smetaların cəmindən ibarətdir.

Testin çətinlik dərəcəsi: orta

İstinad: СНиП IV-1-84 Система сметных нормативных документов и ценообразования в строительстве

8.  Müvəqqəti bina və qurğular üzrə xərclər hansı smeta sənədində öz əksini tapır?

A) Obyekt və yekun smeta hesabatlarında

B) Lokal smetada

C) Ayrıca xərc növləri üzrə smeta hesablaşmalarında

D) Forma-2 üzrə nəzərdə tutulmuş hesabatlarda

E) Lokal və yekun smeta hesabatlarında

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

9. Hidrotexniki qurğular dedikdə nə başa düşülür?

A) Keçidlər və aşırımlar

B) Su ilə təmasda olan qurğular

C) Körpülər və keçidlər

D) Tünellər və panton

E) Asma qurğular

Testin çətinlik dərəcəsi: asan

İstinad: Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli 109 nömrəli qərarı ilə TƏSDİQ EDİLMİŞDİR

10. Hündürlüyü 100 m-dən çox olan qurğular necə adlanır?

A) Unikal qurğular

B) Yüksək binalar

C) Hündür binalar

D) Hündür qurğular

E) Yüksək qurğular

Testin çətinlik dərəcəsi: orta

İstinad: Bina və qurğuların qrunt əsasları. Layihələndirmə normaları. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 15 aprel 2015-ci il tarixli 02№-li qərarı ilə təsdiq edilmişdir.

11. Hansı məlumat əsasında quyu tikintisinə texniki tapşırıq tərtib edilir?

A) Ekoloji texniki tapşırığa əsasən

B) Hasilatın çıxarılma üsullarına əsasən

C) Təhlükə potensiallı zonaların təsnifatına əsasən

D) Geoloji-geofiziki məlumatlara əsasən

E) Quyudan çıxan mayenin məlumatlarına əsasən

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Dənizdə Neft və qaz quyularının tikintisinin vahid texniki Qaydaları”  Bakı – 1998

12. Hidrotexniki qurğuların vizual yoxlamalarının hansı bölmələri mövcuddur?

A) Ümumi və cari

B) Ümumi və xüsusi

C) Xüsusi və cari

D) Xüsusi və təkrar

E) Əsaslı və cari

Testin çətinlik dərəcəsi: asan

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010
(MS 1669347-13-2009)

13. Tikinti obyektlərinə xarici təsirlər (konstruksiyaların, avadanlıqların, qar yığılmalarının, insanların və bu kimi digər amillərin çəkiləri) necə adlanır?

A) Təsirlər

B) Yüklər

C) Külək dalğaları

D) Fırtınalar

E) İqlim

Testin çətinlik dərəcəsi: orta

İstinad: Yüklər və Təsirlər. Layihələndirmə Normaları. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 15 aprel 2015-ci il tarixli 02№-li qərarı ilə təsdiq edilmişdir

14. Tikinti obyektinin bərpası dedikdə nə başa düşülür?

A) Obyektlərdə quraşdırılmış texnoloji avadanlıqların və ya
mühəndis-kommunikasiya təminatı xətlərinin istismara hazır vəziyyətə gətirilməsi

B) Tikintiyə sərf ediləcək maliyyə xərclərinin əks olunduğu sənədlər

C) Tikinti ərazisində tikinti obyektlərinin altındakı torpaq sahəsi

D) Tikinti ərazisində tikintinin aparılması üçün zəruri olan torpaq
sahəsi

E) İstismara yararsız vəziyyətə düşmüş obyektin müvafiq
layihə əsasında tikinti-quraşdırma işləri yerinə yetirilməklə ilkin vəziyyətə qaytarılması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

15. Tikinti meydançası dedikdə nə başa düşülür?

A) Tikinti ərazisində tikintinin aparılması üçün zəruri olan torpaq sahəsi

B) Tikinti ərazisində tikinti obyektlərinin altındakı torpaq sahəsi

C) Tikinti üçün ayrılmış və nişanlanmış torpaq sahəsi

D) Tikintiyə sərf ediləcək maliyyə xərclərinin əks olunduğu sənədlər

E) İstismara yararsız vəziyyətə düşmüş obyektin müvafiq
layihə əsasında tikinti-quraşdırma işləri yerinə yetirilməklə ilkin vəziyyətə qaytarılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

16. Tikinti layihələrinin ekspertizası hansı cavabda düzgün göstərilmişdir?

A) Tikinti obyektlərinin tikintisini və ya sökülməsini, mühəndis-axtarış işlərinin yerinə yetirilməsini və

tikinti obyektlərinin layihələndirilməsini sifariş edən dövlət orqanları, bələdiyyələr, eləcə də
hüquqi və ya fiziki şəxslər

B) Tikinti layihələrinin şəhərsalma və tikintiyə dair
normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması

C) Tikintiyə sərf ediləcək maliyyə xərclərinin əks olunduğu sənədlər

D) Tikinti məmulatı, tikinti məmulatı və ya inşaat
konstruksiyalarının hazırlanmasında bilavasitə istifadə olunan materiallar

E) Şəhərsalma və tikinti fəaliyyətinə
dair qaydalar, habelə standartlar, şərtlər, texniki normalar və şəhərsalma və tikintini tənzimləyən
digər texniki normativ hüquqi aktlar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

17. Sifarişçi hansı cavabda düzgün göstərilmişdir?

A) Tikinti layihələrinin şəhərsalma və tikintiyə dair
normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması

B) Şəhərsalma və tikinti fəaliyyətinə
dair qaydalar, habelə standartlar, şərtlər, texniki normalar və şəhərsalma və tikintini tənzimləyən
digər texniki normativ hüquqi aktlar

C) Tikinti obyektlərinin tikintisini və ya sökülməsini, mühəndis-axtarış işlərinin yerinə yetirilməsini və
tikinti obyektlərinin layihələndirilməsini sifariş edən dövlət orqanları, bələdiyyələr, eləcə də
hüquqi və ya fiziki şəxslər

D) Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən ərazi planlaşdırılması
sənədlərinin, tikinti obyektlərinin və ya onların ayrı-ayrı hissələrinin layihəsini hazırlayan hüquqi
və ya fiziki şəxs

E) Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən tikinti və mühəndis-axtarış
işlərini yerinə yetirən hüquqi və ya fiziki şəxs

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

18. Layihəçi hansı cavabda düzgün göstərilmişdir?

A) Tikinti layihələrinin şəhərsalma və tikintiyə dair
normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması

B) Şəhərsalma və tikinti fəaliyyətinə
dair qaydalar, habelə standartlar, şərtlər, texniki normalar və şəhərsalma və tikintini tənzimləyən
digər texniki normativ hüquqi aktlar

C) Tikinti obyektlərinin tikintisini və ya sökülməsini, mühəndis-axtarış işlərinin yerinə yetirilməsini və
tikinti obyektlərinin layihələndirilməsini sifariş edən dövlət orqanları, bələdiyyələr, eləcə də
hüquqi və ya fiziki şəxslər

D) Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən ərazi planlaşdırılması
sənədlərinin, tikinti obyektlərinin və ya onların ayrı-ayrı hissələrinin layihəsini hazırlayan hüquqi
və ya fiziki şəxs

E) Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən tikinti və mühəndis-axtarış
işlərini yerinə yetirən hüquqi və ya fiziki şəxs

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

19. Podratçı hansı cavabda düzgün göstərilmişdir?

A) Tikinti layihələrinin şəhərsalma və tikintiyə dair
normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması

B) Şəhərsalma və tikinti fəaliyyətinə
dair qaydalar, habelə standartlar, şərtlər, texniki normalar və şəhərsalma və tikintini tənzimləyən
digər texniki normativ hüquqi aktlar

C) Tikinti obyektlərinin tikintisini və ya sökülməsini, mühəndis-axtarış işlərinin yerinə yetirilməsini və
tikinti obyektlərinin layihələndirilməsini sifariş edən dövlət orqanları, bələdiyyələr, eləcə

də
hüquqi və ya fiziki şəxslər

D) Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən ərazi planlaşdırılması
sənədlərinin, tikinti obyektlərinin və ya onların ayrı-ayrı hissələrinin layihəsini hazırlayan hüquqi
və ya fiziki şəxs

E) Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən tikinti və mühəndis-axtarış
işlərini yerinə yetirən hüquqi və ya fiziki şəxs

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

20. Estakadaların meydançalarının istismarının texniki şərtinə əsasən işıq dirəkləri arasındakı məsafə nə qədər olmalıdır ?

A) 40 metr

B) 45 metr

C) 50 metr

D) 55 metr

E) 60 metr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010 (MS 1669347-13-2009)

21. Estakadaların meydançalarının istismarının texniki şərtinə əsasən işıq dirəyi estakadanın döşəməsindən nə qədər hündürlükdə olmalıdır ?

A) 2 ;3 metr

B) 3 metr

C) 7;8  metr

D) 5 metr

E) 4; 6 metr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010 (MS 1669347-13-2009)

22. Layihəyə əsasən estakadalarda neçə m-dən bir xilasedici dairə asılımalıdır ?

A) 20 metr

B) 30 metr

C) 40 metr

D) 50 metr

E) 60 metr

Testin çətinlik dərəcəsi: orta

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010 (MS 1669347-13-2009)

23. Layihəyə əsasən estakadayanı meydançalarda neçə m-dən bir xilasedici dairə asılımalıdır ?

A) 20 metr

B) 30 metr

C) 40 metr

D) 50 metr

E) 60 metr

Testin çətinlik dərəcəsi: orta

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010 (MS 1669347-13-2009)

24. Estakadaların hərəkət hissələrinin eni neçə m-dən az olmamalıdır ?

A) 2,5 metr

B) 2,7 metr

C) 2,8 metr

D) 3,2 metr

E) 3,4 metr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010 (MS 1669347-13-2009)

25. Estakadaların piyada səkilərinin eni neçə m-dən az olmamalıdır ?

A) 0,5 metr

B) 0,6 metr

C) 0,7 metr

D) 0,75 metr

E) 0,8 metr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Xəzər Dənizində Neftqazmədən Hidrotexniki Qurğularının istismarı Bakı – 2010 (MS 1669347-13-2009)

26. Binanın konstruktiv elementləri hansı yüklərə hesablanır?

A) Müvəqqəti və daimi yüklər

B) Səpələnmiş yüklər

C) Topa yüklər

D) Müvəqqəti yüklər

E) Daimi yüklər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Yüklər və Təsirlər. Layihələndirmə Normaları.

27. Layihə smeta sənədlərinin tərkibinə nələr daxildir?

A) İşlərin istehsal layihəsi

B) Mühəndis-axtarış işləri.Layihənin izahat vərəqi və cizgilər, layihənin pasportu, obyekt və yerli smetalar,bazis toplu smeta hesabı,tikintinin təşkili,ətraf mühitin mühafizəsi və layihənin iqtisadi qiymətləndirilməsi

C) İşlərin təşkili layihəsi

D) Layihənin izahat vərəqi və cizgilər

E) Layihənin pasportu, obyekt və yerli smetalar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

28. Tikinti obyektinin əsaslı təmiri nədir?

A) İistinad konstruksiyalarının təmiri

B) Obyektin istismar müddətini uzatmaq və keyfiyyətini yaxşılaşdırmaq məqsədilə müvafiq layihə əsasında yükdaşımayan konstruksiyaların ,mühəndis –kommunikasiya xətlərinin dəyişdirilməsi, zərurət yaranarsa yük daşıyan elementlərin uyğunu ilə əvəzlənməsi

C) Konstruksiyaların sökülməsi

D) Dam örtüyünün təmiri

E) Qapı və pəncərə şüşələrinin dəyişdirilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

29. Yükdaşıyan konstruksiya nədir?

A) Arakəsmə divar

B) Dam örtüyü

C) Döşəmə konstruksiyası

D) Pilləkən marş və meydançası

E) Tikinti obyektini dayanıqlığını və möhkəmliyini təmin edən konstruksiya sistemi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İnşaat mexanikası

30. Cari təmir işləri hansı qruplara bölünür?

A)  Planlaşdırılmayan və təcili yerinə yetirilən təmir

B)  Layihəyə əsasən yerinə yetirilən təmir

C) Əvvəlcədən planlaşdırılan təmir; gözlənilməyən qəzalar nəticəsində aşkar edilmiş və bir qayda olaraq təcili yerinə yetirilən təmir

D)  Sonradan verilən qərarlar əsasında yerinə yetirilən təmir

E)  Obyektə baxış keçirilib yerinə yetirilən təmir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

31.  Dəniz özüllərinin tikintisi hansı məqsədlər üçün nəzərdə tutulur?

A)  Neftin qazın çıxarılması, sahilə nəql olunması üçün

B)  Gəmilərin yan alması üçün

C) İnsanlaın yaşaması üçün

D)  Neftin və qazın saxlanılması üçün

E) Materialların yığılıb saxlanılması üçün

Testin çətinlik dərəcəsi: asan

İstinad: Hacıyev T.M Mahmudov T.M "Dəniz Hidrotexniki qurğuların tikintisinin təşkili texnologiyası

32.  Elektrik-qövs qaynaqlama zamanı düzgün ardıcıllığı göstərin

A)  Kök, qapaq, ikiqat doldurma, isti

B) Kök, isti, ikiqat doldurma, qapaq

C) İsti, kök, qapaq, ikiqat doldurma

D) Qapaq, isti, ikiqat doldurma, kök

E) İkiqat doldurma, qapaq, kök, isti

Testin çətinlik dərəcəsi: orta

İstinad: Hacıyev T.M Mahmudov T.M "Dəniz Hidrotexniki qurğuların tikintisinin təşkili texnologiyası

33. Qaynaq birləşməsi neçə cür olur?

A) Bucaq altında, uc-uca, üfüqi, alt-alta

B)  Uc-uca, yan-yana, bucaq altında, üst-üstə

C) Yan-yana, perpendikulyar, üfüqi, uc-uca

D) Şaquli, alt-alta, bucaq altında, üst-üstə

E) Perpendikulyar, üfüqi, şaquli, alt-alta

Testin çətinlik dərəcəsi: orta

İstinad: Hacıyev T.M Mahmudov T.M "Dəniz Hidrotexniki qurğuların tikintisinin təşkili texnologiyası

34.   Estakadalarda istifadə olunan svayların hansı zonası daha çox korroziyaya uğrayır?

A) Su hava sərhədi

B)  Sudan yuxarı hissəsi

C) Suda qalan hissəsi

D) Dərinliyə vurulan hissəsi

E) Heç bir zonası korroziyaya uğramır

Testin çətinlik dərəcəsi: asan

İstinad: Hacıyev T.M Mahmudov T.M "Dəniz Hidrotexniki qurğuların tikintisinin təşkili texnologiyası

35.  Betonun bərkimə müddəti neçə gündür?

A)  25 (+-5) gün

B)  29 (+-4) gün

C)  32 (+-3) gün

D) 35 (+-5) gün

E) 28 (+-3) gün

Testin çətinlik dərəcəsi: asan

İstinad: Hacıyev T.M Mahmudov T.M "Dəniz Hidrotexniki qurğuların tikintisinin təşkili texnologiyası

36. Tikint-quraşdırma işlərində tələb olunan cizgilər hansılardır?

A) İşçi cizgilər

B) Təqvim və təchizat qrafikləri

C) Naturadan çəkilmiş fotoşəkil

D) Əmək haqqı cədvəli

E) Əl ilə çəkilmiş rəngli şəkil

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vəzifə funksyalarına əsasən

37. Müvəqqəti bina və qurğular nədir?

A) Obyekt üzrə nəzərdə tutulmuş bina və qurğular

B) Qazanxana,su nasosxanası və yeraltı su hovuzları,

C) Fəhlələrin soyunub-geyinmə otaqları,yeməkxana, müvəqqəti yollar, işıq, qaz,su xətləri,sanitar qovşaqlar və material anbarları

D) Layihə üzrə nəzərdə tutulmuş daxili komunikasiya xətləri.

E) Layihə üzrə nəzərdə tutulmuş xarici komunikasiya xətləri.

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

38. Nəzərə alınmayan xərclər nədir?

A) Smetada nəzərdə tutulmayan xərclər

B) Tikinti prosesində ortaya çıxan işlər üçün nəzərdə tutulan xərc

C) Müdiriyyətin icazəsi ilə ödənilən xərclər

D) Ezamiyyat xərcləri

E) Təsərrüfat xərcləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

39. Əsaslı tikinti dedikdə nə başa düşülür?

A) Yerli binaların əsaslı vəsaitlə tikilməsi

B)  Bina və qurğularin genişləndirilməsi

C)  Əsas vəsait tələb edən binaların tikilməsi

D) Yalnız əsas tikinti-quraşdırma işləri.

E) Yeni tikililər, yenidən qurma işləri və texniki modelləşdirilmə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

40. Smeta maya dəyəri 300 min manat, plan yığımının səviyyəsi 8 % olarsa, normativ gəlirin məbləği nə qədərdir?

A) 25000 manat

B) 24000 manat

C) 27600 manat

D) 25500 manat

E) 41000 manat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Vəzifə funksyalarına əsasən

41. Subpodrat təşkilatlar hansı təşkilatlara deyilir?

A) Avadanlıqlar quraşdıran təşkilatlar

B) Sərasər tikinti işlərini yerinə yetirən təşkilata

C) Bəzək işlərini yerinə yetirən təşkilat

D) Təmir döşəmə işlərini yerinə yetirən təşkilat

E) Xüsusi iş növlərinin- mühəndis qurğuları, sistemləri elektirik quraşdırma və.s işləri baş podrat təşkilatla bağlanan subpodrat müqaviləsi əsasında yerinə yetirilən təşkilatlara deyilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

42. Düzünə xərclərə nələr daxildir.

A) İstimar xərcləri, birdəfəlik xərclər, material resursları xərcləri

B) Əmək haqqı üzrə smeta xərcləri, inşaat maşınlarının istismar xərcləri, material resurslarının dəyəri

C) İllik xərclər, əmək haqı xərcləri, birdəfəlik xərclər və material resurslarının dəyəri

D) İnzibati xərclər, illik xərclər, birdəfəlik xərclər

E) Amortizasiya xərcləri, nəqliyyat xərcləri, inşaat maşınlarının istismar xərcləri, material resurslarının dəyəri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

43. Smeta dəyəri 180mln manat, üstəlik xərcin səviyyəsi 15%, plan yığımının səviyyəsi 8% olarsa, düzünə (birbaşa) xərcin məbləği nə qədər olar?

A) 145

B) 157

C) 150

D) 138

E) 160

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

44. Plan yığımı (plan üzrə qəlir )hansı xərclərə görə təyin adilir.

A) Materiallın dəyərinə əsasən

B) Düzünə və üstəlik xərclərə görə

C) Üstəlik xərclər və əsasən əmək haqqına görə

D) Düzünə və əsasən əmək haqqına görə

E) Tikinti maşınlarının istismar xərcinə görə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

45. Yerinə yetirilmiş tikinti-quraşdırma, təmir-tikinti işlərinin qəbul olunması (təhvil-təslim) üzrə hansı əsas sənəd tərtib olunur?

A) 4 №-li qəbul aktı

B) 3 №-li qəbul aktı

C) 2 №-li qəbul aktı

D) 5 №-li qəbul aktı

E) 10 №-li qəbul aktı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

46. Yerinə yetirilmiş işlər üzrə sifarişçi ilə podratçı arasında hesablaşmalar hansı sənəd əsasında aparılır?

A) 3 №-li arayış

B) 4 №-li arayış

C) 2 №-li arayış

D) 7 №-li arayış

E) 1 №-li arayış

Testin çətinlik dərəcəsi: asan

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

47. Eni 1.5 m, uzunluğu 6 m və qalınlığı 0.35 m olan dəmir-beton plitənin çəkisi nə qədərdir.

A) 6.56 t

B) 7.56 t

C) 8.24 t

D) 7 .82 t

E) 3.36 t

Testin çətinlik dərəcəsi: orta

İstinad: İnşaat mexanikası

48. Tikinti obyektlərində quraşdırılmış texnoloji avadanlıqların və ya mühəndis-kommunikasiya təminatı xətlərinin istismara hazır vəziyyətə gətirilməsi necə adlandırılır?

A) Tikiniti obyektlərinin əsaslı təmiri

B) Tikinti layihələrinin ekspertizası

C) Tikinti quraşdırma işləri

D) Buraxılış-sazlama işləri

E) Tikinti obyektlərinin bərpası

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

49. Tamamlanmamış tikinti nədir?

A) Dam örtüyü olmayan tikinti

B) İstilik və ventilyasiya sistemi olmayan tikinti

C) Başa çatmamış və ya istifadəyə verilməmiş obyekt

D) Başa çatmış tikinti

E) İstifadəyə verilmiş obyekt

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

50. Tikinti obyektinin  cari təmiri nədir?

A) Obyektin istismar keyfiyyətinin saxlanılması məqsədilə kommunikasiya, konstruksiyalarda   dəyişiklik edilmədən vaxtaşırı təmir-tikinti işləri

B)     Otaqların təmiri

C) Obyekt üzrə qapı və pəncərələrin dəyişdirilməsi

D) Tikinti obyektinin yenidən qurulması

E) Yaşayış otaqlarının rənglənməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

51. Tikinti obyektinin yenidən qurulması nədir?

A) Obyektin cari təmiri

B) Obyektin bərpası və  istismar keyfiyyətinin müasirləşdirilməsi məqsədilə layihə əsasında yenidən tikintisi

C)  Obyektin mövcud təyinatının dəyişdirilməsi, və ya istismar keyfiyyətinin müasirləşdirilməsi məqsədilə layihə əsasında yeni texnologiyaların tətbiqi,yeni bina və qurğuların inşası, kommunikasiya xətlərinin dəyişdirilməsi və sair.

D) Obyektin əsaslı təmiri

E) Obyekt üzrə infrastrukturun dəyişdirilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

52. Tikinti işlərində "Reper" dedikdə nə başa düşülür?

A) Tikinti sahəsinin qırmızı yüksəklik xətti

B) Tikinti sahəsinin qara yüksəklik xətti

C)  Tikintinin aparılması üçün layihəyə uyğun istinad nöqtəsi

D) Tikinti sahəsinin təyin oxları

E) Tikinti sahəsinin planlaşdırılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: İnşaat mexanikası

53. Tikinti quraşdırma işlərinin maya dəyəri dedikdə nə başa düşülür?

A) Üstəlik xərc

B) Plan yığımı xərci

C) Birbaşa və üstəlik xərc

D) Nəzərdə tutulmayan xərc.

E) Digər xərcdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

54. Tikinti işlərinə daxili nəzarət kim tərəfindən aparılır?

A) Sifarişçi tərəfindən

B) Subpodratçı tərəfindən

C) Baş podratçı tərəfindən norma qaydalara uyğun tənzimlənir

D) Layihəçi tərəfindən

E) Müəllif nəzarətçisi tərəfindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

55. Elektrik quraşdırma işlərində üstəlik xərclər neçə faiz təşkil edir?

A) Birbaşa xərcdən 15% götürülür

B) Birbaşa xərcdən 12% götürülür

C) Birbaşa xərcdən 18% götürülür

D) Birbaşa xərc tərkibində əmək haqqının 75% qəbul edilir

E) Birbaşa xərc tərkibində əmək haqqının 85% qəbul edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

56. Santexniki işlərdə üstəlik xərclər necə hesablanır?

A)  Birbaşa xərcdən  12% götürülür

B) Birbaşa xərcdən  15% götürülür

C) Birbaşa xərcdən  7.6% götürülür

D) Birbaşa xərc tərkibində   əmək haqqının 75% qəbul edilir

E) Birbaşa xərcdən  10% qəbul edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

57. Tikinti işlərinə hazırlıq nədən ibarətdir?

A)  Torpaq sahəsinin seçilməsi

B) Obyektin tikinti oxlarının təyini

C)  Özül çalasının qazılması

D) Maşın-mexanizmlərin gətirilməsi

E)  Tikinti təşkilatının seçilməsi,avadanlıq və materialların seçilməsi üçün sahənin ayrılması,tikintiyiə tələb olunan maşın mexanizmləri dəstləşdirilməsi,tikinti yerinin müvəqqəti elektrik və santexniki işlərinin yerinə yetirilməsi, işçilərin sanitar –mədəni evciklərlə təmin edilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

58. Borunun diametrinə (D) və qalınlığına (b) uyğun 1PM-nin hesablanması

A) (D-b)*0.2466

B) (D-b)*0.02466

C) (D-b)*b*0.02466

D)  (D-b)*D*0.02466

E)  (D-b)*D

Testin çətinlik dərəcəsi: orta

İstinad: İnşaat mexanikası

59. Dəmir-beton konstruksiya nə deməkdir?

A) Metal qəliblərə tökülmüş beton qarışığı

B) Betona bərkidilmiş metal konstruksiya

C) Tərkibində qum, sement və doldurucular olan qarışıqdır

D) Polad konstruksiyalardır

E) Tərkibində metal millər (armatur) olan olan beton məmulatı

Testin çətinlik dərəcəsi: asan

İstinad: İnşaat mexanikası

60.  Aşağıdakılardan hansılar fərdi mühafizə vasitələridir?

A) Kəndir, xüsusi nişanlar

B) Əl arabaları, alət və ləvazimatlar

C) Xilasetmə dairələri, qayıqlar

D) Dəbilqə, kombinezon, xüsusi ayaqqabı, qruyucu eynək, əlcək

E) Əlcək, dəbilqə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Neft qaz sənayesində təhlükəsizlik qaydaları

61. Boru xətləri nə üçün sınaqdan keçirilir?

A) Korroziyanın qarşısını almaq üçün əlavə tədbirdir

B) Boru xətlərində sızmaları və möhkəmliyi yoxlamaq

C) Neft və ya qazın təzyiqinin azaldılması üçün

D) Neft və ya qazın təzyiqinin artırılması üçün

E) Boruların diametrini yoxlamaq üçün

Testin çətinlik dərəcəsi: asan

İstinad: AzDTN 2.9.2

62. Baş podrat tikinti təşkilatı hansı təşkilatdır.

A) Sifarişçi ilə müqavilə (kontakt) bağlayır və ümumi tikinti işlərini öz qüvvəsi ilə yerinə yetirir, tikinti

B) İştirakçılarıının fəaliyyətini əlaqələndirir

C) Tikinti şirkəti

D) Səhmdar cəmiyyət,məhdud məsuliyyətli cəmiyyətləri

E) Tikin birlikləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

63. Tikintinin aparılma üsulları

A) Podrat və təssərrüfat üsulu

B) Qarışıq üsul

C) Podrat üsul

D) Fərdi və kollektiv üsul

E) Təsərrüfat üsulu

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

64. Təsərrüfat üsullarıının mahiyyəti

A) Hər bir təşkilat tikinti işlərini özü həyata keçirir

B) Tikinti təşkilatı özünə lazım olan binaları özü tikir

C) Müəssisə və ya təşkilat öz əsas istehsalat fəaliyyəti ilə yanaşı ona lazım olan tikintini daxili gücü ilə yerinə yetirir

D) Tikinti aparmaq üçün işçi qüvvəsini özü toplayır

E) Bu üsul kənd tikintilərində istifadə edilir.

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

65. Birdəfəlik təlimat hansı hallarda keçirilir?

A) İşçi məzuniyyətdən qayıtdıqdan sonra

B) İşçi təkmilləşdirmə və ya ixtisasartırma kursundan qayıtdıqdan sonra

C) İşçi peşəsinə (vəzifəsinə) aid olmayan işlərin yerinə yetirilməsinə və ya yüksək təhlükəli şəraitdə işləmək üçün tapşırıq aldıqda

D) İşçi başqa işə keçəndə

E) İş yerinə yeni avadanlıq alındıqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: Neft qaz sənayesində təhlükəsizlik qaydaları

66. Gizli işlərin aktı nə vaxt tutulur?

A) Tikinti başlamazdan əvvəl

B) İşlər yerinə yetirilən zaman

C) Tikinti işləri bitdikdən sonra

D) Gizli işlər aktlaşdırılmır

E) 50%-i əvvəl 50%-i sonra tutulmalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

67. Tikinti ərazisində tikinti obyektlərinin altındakı torpaq sahəsi necə adlandırılır?

A) Tikinti meydançası

B) Tikinti ərazisi

C) Tikinti sahəsi

D) Tikinti layihəsi

E) Tikinti dairəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

68. Tikinti layihələrinin ekspertizadan keçirilməsində məqsədləri hansılardır?

A) Layihələrin etibarlılıq və təhlükəsizlik baxımından şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması

B) Layihələrin memarlıq və dizayn baxımından müasir dünya standartlarının tələblərinə uyğunluğun müəyyən edilmiş qaydada yoxlanılması

C) Dövlət vəsaitləri hesabına maliyyələşdirilən obyektlərə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi

D) Ayrılmış vəsaitdən istifadə zamanı əlavə gəlir imkanlarının müəyyənləşdirilməsi və müvafiq qərarların verilməsi

E) Tikinti layihələrinin texniki-iqtisadi qiymətləndirilməsinin yoxlanılması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

69. Əsaslı təmir işlərinin aparılması üçün lazım olan sənədlər hansılardır?

A) Sifariş, material tələbatı.

B) İş həcmləri və toplu smeta

C) Qüsur aktı, layihə smeta sənədləri.

D) Smeta sənədləri

E) Lokal smetalar və iş həcmləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

70. Bazis smeta dəyəri nədir?

A) 1991-ci ilin qiymətlərilə hesablanmış dəyəri

B) 1985-cü ilin qiymətlərilə hesablanmış dəyəri

C) Cari ilin qiymətlərilə hesablanmış dəyəri

D) Obyekt smetalarının dəyəri

E) Lokal smetaların dəyəri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vəzifə funksyalarına əsasən

71. Mühəndis-axtarış işləri hansı məqsədlə həyata keçirilir?

A) Tikintisinə icazə tələb olunan obyektlərin tikinti layihələrinin hazırlanması və tikintisinin həyata keçirilməsi

B) Tikinti işlərinin sürətli həyata keçirilməsi üçün zəruri imkanların aşkarlanması və müvafiq tədbirlərin görülüməsi

C) Həmin tikinti obyektlərinin yerləşəcəyi torpaq sahələrinin planlaşdırılması üçün zəruri ilkin məlumatlar əldə etmək

D) Fövqəladə hallarda tikinti obyektinin məruz qala biləcəyi təhlükəninin miqyasının müəyyənləşdirilməsi

E) Tikintisinə icazə tələb olunan obyektlərin mühəndis-kommunikasiya sistemlərinin layihələndirilməsi üçün.

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

72. Tikinti quraşdırma işlərində layihə üzrə tələb olunan avadanlıqları kim təchiz edir?

A) Podratçı təşkilat

B) Sifarişçi təşkilat

C) Podratçı və sifarişçi təşkilat

D) Layihəçi təşkilat

E) Subpodrat təşkilat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vəzifə funksyalarına əsasən

73. Tikintinin təşkili layihəsini hansı təşkilat hazırlamalıdır?

A) Podratçı təşkilat

B) Sifarişçi təşkilat

C) Layihə təşkilatı

D) Layihə və sifarişçi təşkilatlar

E) Sifarişçi ilə podratçı təşkilatlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

74. Metal konstruksiyaların atmosfer korroziyası nəyin nəticəsində baş verir?

A) Oksigen və nəm

B) Kimyəvi maddə

C) Elektrokimyəvi proseslər

D) Su

E) Bioorqanizmlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: K.M.Məmmədov, Z.S.Musayev, A.Ə.Mürsəlov, V.V.Məmmədova. Neft yığılan, nəqledən mühəndis qurğuları və avadanlıqları. Dərslik. Bakı, 2009

75. Təmir işlərinin hansı növləri var?

A) əsaslı və yenidən qurma işləri

B) Tikintidə təmir işləri. əsaslı təmir işləri olur.

C) əsaslı və cari təmir işləri

D) Bərpa və yenidənqurma işləri

E) Tikinti və yenidənqurma işləri.

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

76. İstinad divarı nədir?

A) Köməkçi divarlar

B) Arakəsmə divarları

C) Əsas yüklərə qarşı nəzərdə tutulmuş divarlar

D) Rigel altı divar

E) Rigel üstü divar

Testin çətinlik dərəcəsi: asan

İstinad: İnşaat mexanikası

77. 1 düym (düymə) neçə mm-dir?

A) 25,4 mm

B) 10,3 mm

C) 15,4 mm

D) 30,5 mm

E) 20,5 mm

Testin çətinlik dərəcəsi: asan

İstinad: İnşaat mexanikası

78. Metallar hansı qrupa bölünür?

A) qara və ağ

B) ağ və əlvan

C) polad və çuqun

D) qara və əlvan

E) dəmir və alüminium

Testin çətinlik dərəcəsi: asan

İstinad: Polad konstruksiyalar

79. Əsaslı tikintiyə kapital qoyuluşunun tərkibinə nələr daxildir?

A) Material və avadanlıqların alınması və nəqliyyat xərcləri

B) TQİ, avadanlıq, sair xərclər, LAİ və qazma

C) Avadanlıq, LAİ və qazma

D) TQİ , gələcək illərin layihəsi

E) LAİ və qazma

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

80. Hidravliki sınaq nə ilə aparılır?

A) Hava ilə

B) Qaz ilə

C) Su ilə

D) Sınaq tələb olunmur

E) Maye ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AzDTN 2.9.2

81. Pnevmatik sınaq nə ilə aparılır?

A) Maye ilə

B) Su ilə

C) Sınaq tələb olunmur

D) Qaz və ya hava ilə

E) Neft məshulu ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: AzDTN 2.9.2

82. Yaşayış sahəsinə hansı sahələr daxildir?

A) Yataq otağının sahəsi

B) Mənzillərin yaşayış otaqlarının sahələri

C) Yataq otağının və zalın sahəsi

D) Dəhliz və eyvanlar sahəsi

E) Zalın sahəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsi

83. Smeta dəyərinin müəyyən edilməsi üçün ilkin hansı sənədlər lazımdır?

A) İşçi layihə sənədləri, tikinti-quraşdırma işlərinin nemonkulaturası və həcmləri, materialların və avadanlıqların spesifikasiyası, smeta normativləri.

B) İşçi layihə sənədləri, tikinti-quraşdırma işlərinin nemonkulaturası və həcmləri, materialların spesifikasiyası, smeta normativləri.

C) İşçi layihə sənədləri, tikinti-quraşdırma işlərinin nemonkulaturası və həcmləri, avadanlıqların spesifikasiyası, smeta normativləri.

D) İşçi layihə sənədləri, tikinti-quraşdırma işlərinin nemonkulaturası, materialların və avadanlıqların spesifikasiyası, smeta normativləri.

E) Tikinti-quraşdırma işlərinin nemonkulaturası və həcmləri, materialların və avadanlıqların spesifikasiyası, smeta normativləri.

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

84. Layihə –axtarış işlərinə çəkilən xərclər əsasən hansı smeta sənədlərində göstərilir.?

A) Əmək haqqında

B) Xərclər haqqında məlumatda

C) Yekun smetada

D) Təbiətin mühafizəsi üzrə smetada

E) Lokal smetada

Testin çətinlik dərəcəsi: orta

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

85. Smeta üzrə əmək haqqı hansı smeta sənədlərində təyin olunur

A) Lokal və obyekt smetalarında

B) Lokal smeta hesablamalarında

C) Yekun smeta hesablamalarında

D) Obyekt smeta hesablamalarında

E) Ayrıca xər növləri üzrə smeta hesablamalarında

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Справочное пособие заказчика-застройщика. Справочник строителя

86.  Düzünə xərclərin tərkibinə daxil deyildir.

A) Fəhlələrin əsas əmək haqqı

B) İnzibati-təsərrüfat xərcləri

C) Materialların və konstruksiyaların dəyəri

D)  Sair düzünə xərclər
